Azerbaijanian Journal of Economics and Social Studies

*Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı*
*www.azjess.com*
Volume 4, Number 4/İl 4, Say 4, 2017

# AZƏRBAYCANDA İNVESTİSİYA MÜHİTİ VƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MÜASİR VƏZİYYƏTİ

**Vəliməmmədov Məcidxan Şahin oğlu**
*"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC*

**Xülasə**

Tədqiqatın əsas məqsədi Azərbaycanda müasir investisiyanın mühitini qiymətləndirməkdir. Son bir neçə il ərzində Azərbaycan hökuməti ölkəni dünya iqtisadiyyatı bazarına daha çox inteqrasiya etmək, xarici investisiyaların cəlb edilməsi, iqtisadiyyatın şaxələndirilməsi və müsbət artımı təmin etmək üçün çalışır. İqtisadi diversifikasiyanı dəstəkləmək üçün xarici investisiyaların cəlb edilməsi Cənab Prezident İlham Əliyevin göstərdiyi hədəflərdir. Son bir neçə il ərzində dünya bazarında gözlənilən neft qiymətlərinin aşağı olması və onların büdcə gəlirlərinə təsir göstərməsi Azərbaycan hökumətinin daha geniş və əhatəli islahatlar aparmasına səbəb oldu. Cənab Prezident İlham Əliyev iqtisadiyyatın neft və qaz hasilatından - kənd təsərrüfatı, nəqliyyat, turizm, informasiya və kommunikasiya texnologiyaları sahələrinə diversifikasiyaya kömək etmək üçün investisiyaların cəlb edilməsi məqsədi ilə göstərilən sahələri əsas hədəf hesab etmişdir.

**Açar sözlər:** qlobal iqtisadi bazar, xarici investisiyalar, müsbət artım, neft istehsalı, kommunikasiya texnologiyaları.

## Giriş

İnvestisiyaların cəlb olunması və səmərəli istifadə edilməsi probleminin həlli konseptual, sistemli metodoloji yanaşma olmadan, bazar iqtisadiyyatının qurulduğu şəraitdə Azərbaycanda investisiya proseslərinin xüsusiyyətlərinə baxılmadan mümkün deyil. Dövlətin investisiya siyasəti və investisiya strategiyası üzrə perspektiv nəzəri müddəaların və elmi cəhətdən əsaslandırılmış metodikaların işlənib hazırlanması, əlverişli investisiya mühitinin formalaşması ölkənin inkişafının iqtisadi əsaslarının möhkəmləndirilməsi üçün ilkin şərtlərin yaradılmasının zəruri şərti sayılır.

Ölkə iqtisadiyyatı üzrə bütövlükdə və onun ayrı-ayrı sahələrində investisiya proseslərinin idarə edilməsi onların inkişaf strukturunun dəyişməsinə və dinamikasına təsir edən amillərin kompleks tədqiqini tələb edir. İnvestisiyalaşma üzrə idarəetmə qərarlarının formalaşmasına təsir edən makroiqtisadi şəraitin öyrənilməsi zəruridir.

İqtisadiyyatda baş verən dərin və səmərəli dəyişikliklər yalnız investisiyaların yeni idarəetmə mexanizmlərinin formalaşması və fəal istifadəsi zamanı mümkündür.

Dövlətin investisiya siyasətinin formalaşmasının elmi cəhətdən əsaslandırılmış prinsiplərinin işlənib hazırlanması zəruridir. Təsərrüfat subyektlərinin investisiya siyasətinin formalaşması prinsipləri investisiya proseslərinin idarə edilməsi metodologiyasının ən mühüm tərkib ünsürlərindən biridir. Bu prinsiplərin yaradıcılıqla istifadəsi bütövlükdə respublika və onun regionları, ümumilikdə iqtisadiyyat və onun sahələri üzrə məqsədli inkişaf proqramlarının maliyyələşdirilməsi üçün investisiyaların seçimi mexanizminin təkmilləşdirilməsinə kömək etməlidir.

Azərbaycan iqtisad elmində investisiya fəallığının stimullaşdırılmasının müxtəlif metodlarından istifadənin səmərəliliyi məsələləri kifayət qədər dərindən tədqiq olunmamışdır. Odur ki, texniki inkişaf sferasında artan rəqabət şəraitində investisiya potensialının qiymətləndirilməsi metodikasının işlənib hazırlanmasına ehtiyac vardır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi Azərbaycanda investisiya fəaliyyətinin nəzəri və metodoloji əsaslarının tədqiqi, bütövlükdə ölkə iqtisadiyyatının, eləcə də onun region və sahələrinin investisiya cəlbediciliyinin qiymətləndirilməsinə metodiki yanaşmaların işlənib hazırlanması, ölkədə investisiya fəaliyyətinin aktivləşdirilməsinin əsas istiqamətlərinə dair təklif və tövsiyyələrin əsaslandırılması sayılır. Tədqiqatın məqsədinə uyğun olaraq qarşıya aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

- iqtisadi kateqoriyalar sistemində «investisiya» anlayışını açıqlamaq;
- müasir iqtisadiyyatda yerli istehsalın inkişafı üçün investisiya siyasətinin formalaşması xüsusiyyətlərini araşdırmaq;
- investisiya fəaliyyətinin formalaşması və səmərəli inkişafında dövlətin rolunu müəyyənləşdirmək;
- investisiya fəaliyyətinin müasir vəziyyətini təhlil etmək, ölkənin iqtisadi inkişafına investisiya fəallığının təsirini araşdırmaq;
- investisiya siyasətinin konseptual-hüquqi əsaslarının təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübədən istifadə imkanlarını təhlil etmək və aşkarlamaq;
- birgə sahibkarlığın inkişafı və ölkə iqtisadiyyatına xarici kapitalın cəlb olunması problemlərini kompleks təhlil etmək;
- ölkədə investisiya mühitinin formalaşması və iqtisadiyyatın real sektoruna daxili və xarici investisiyaların cəlb olunması imkanlarını sistemli şəkildə tədqiq etmək;
- respublikada investisiya və maliyyə-kredit siyasətlərinin inkişafının qarşılıqlı bağlılığını tədqiq etmək;
- investisiya fəaliyyətinin reallaşmasında idarəetmə sisteminin təkmilləşdirilməsinə dair təklif və tövsiyələr işləyib hazırlamaq;

## 1. İnvestisiya fəaliyyətinin və dövlətin investisiya siyasətinin nəzəri-metodoloji əsasları.

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa görə, investisiya dedikdə, gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək üçün sahibkarlıq və

digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaiti, habelə maddi və intellektual sərvətlər başa düşülür. [1]
Həmin vəsait və sərvətlərə aşağıdakılar daxil edilir:

- pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar;
- daşınar və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və s. maddi sərvətlər);
- müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və s. intellektual sərvətlər;
- bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş, lakin patentləşdirilməmiş texniki, texnoloji, kommersiya və s. biliklərin məcmusu ("nou-hau");
- torpaqdan, sudan və s. ehtiyatlardan, binalardan, qurğu və avadanlıqdan istifadə hüquqları, eləcə də müəlliflik hüququndan irəli gələn və digər əmlak hüquqları;
- başqa sərvətlər.

Qanunvericilikdə verilmiş tərifdən göründüyü kimi, kapitalın artımının əsas mənbəyi və investisiyanın həyata keçirilməsinin hərəkətverici motivi mənfəət (gəlir) sayılır. İnvestisiya gəlir əldə etmək məqsədilə həyata keçirilir və o, gəlir gətirmirsə, onda faydasız sayılır. Lakin burada həm də investisiya heç də öz əhəmiyyət kəsb etməyən ikinci bir tərəfi də meydana çıxır:tələb olunan gəlirin alınması üçün resursların qoyuluşu.

"İnvestisiya" anlayışının daha bir neçə tərifinə baxaq. "İnvestisiya-gəlir və ya mənfəətin əldə edilməsi üçün pul vəsaitlərinin qoyuluşudur;gəlir və ya mənfəətin çıxarılması üçün əldə edilmiş mülkiyyətdir".

Mamillanın lüğətində investisiya "bilavasitə istehlak üçün deyil, istehsal üçün nəzərdə tutulan mənfəətlərin axını" kimi müəyyən edilir.

İ.Bernar və J.Kolminin izahlı lüğətində investisiyaya daha qısa formada oxşar tərif verilmişdir. Burada investisiya dedikdə, "istehsal vasitələrinin əldə edilməsi" başa düşülür. Onların fikrincə:"investisiya daha geniş mənada gəlir almaq məqsədilə kapitalın əldə edilməsidir". Ümumi işlək formada isə qiymətli kağızlara sərmayədir:

Sonuncu tərif kapitalyaradıcı (real) investisiyalarla maliyyə investisiyaları arasında vacib bir sərhəd çəkir. Əgər real investisiyalar son nəticədə yeni istehsal vasitələrinin istismara verilməsinə gətirib çıxarırsa, maliyyə investisiyaları artıq mövcud əmlaka mülkiyyət hüququnun dəyişməsinə səbəb olur.

Bazar iqtisadiyyatı yolu tutan Azərbaycan Respublikasında istehsalın təşkili və aparılmasına, onun sferasının genişləndirilməsinə, yeni texnika və texnologiyanın tətbiqinə böyük məbləğdə investisiyalar tələb olunur. Bu tələbatın ödənilməsi, ölkə iqtisadiyyatının sahələrinə, xüsusilə aqrar bölməyə xarici investisiyaların cəlb edilməsi dövlətin həyata keçirdiyi investisiya siyasətindən bilavasitə asılıdır. Bazar iqtisadiyyatı şəraitində investisiya siyasəti aşağıdakı prinsiplər əsasında həyata keçirilməlidir: [2]

- investisiya prosesinin ardıcıl olaraq mərkəzləşdirilməsi, kapital qoyuluşlarının ümumi həcmində müəssisələrin şəxsi vəsaitlərinin, paylarının artırılması, investisiyaların maliyyələşdirmə mənbələrindən biri kimi amortizasiya ayırmalırının rolunun artırılması;
- dövlət investisiyalarının müsabiqə əsasında istehsal məqsədlərinə yerləşdirilməsi;
- mərkəzləşdirilmiş kapital qoyuluşlarının qaytarılması;
- layihələrin birgə dövlət kommersiya maliyyələşdirilməsi praktikasının genişləndirilməsi;

- investisiyalara yönəldilmiş dövlət büdcə vəsaitlərinin məqsədli xərclənməsinə dövlət nəzarətinin gücləndirilməsi;
- dövlət tərəfindən himayə edilən investisiya layihələrinin sığortalanma və təminat praktikasının genişləndirilməsi;
- xarici investisiyaların stimullaşdırılması.

Normal təkrar istehsal prosesini həyata keçirmək üçün müəssisələrin investisiya potensialının bərpa edilməsi tələb olunur. Bunun üçün onların öz mənbələrinin amortizasiyalarının və mənfəətin rolunun artırılması zəruridir.

İqtisadi artımı sürətləndirmək üçün ümumi yığımı artırmaq zəruridir. Lakin yığım fondunun müəyyən səviyyədən çox artırılması labüd olaraq sosial problemlərin həllinin dondurulmasına, son nəticədə istehsalın inkişafının ləngiməsinə gətirib çıxarır. Yığımın müəyyən həddə qədər yüksəldilməsi iqtisadi inkişafın sürətlənməsinə gətirir, bundan sonra isə onun istehsalın inkişafına əks təsiri baş verir. Səmərəlilik aşağı düşür ki, bu da nəticə etibarilə, gəlirliliyin azalmasının qanunauyğun nəticəsi kimi çıxış edir. [4]

Bütün bu qeyd edilənlər ölkənin iqtisadi inkişafı üçün investisiyanın mühüm rol oynadığını və iqtisadiyyatın maliyyələşdirilməsinin həm xarici, həm də daxili mənbələri arasında optimal nisbətin gözlənilməsinin vacib olduğunu sübut edir.

İnvestisiya iqtisadiyyatın sabitləşdirilməsinin və perspektiv inkişafının əsas vasitələrindən biri kimi çıxış etməklə real ümumi kapitalın artırılmasında, iqtisadi səmərəliliyin stimullaşdırılmasında, bir sözlə, rəqabət qabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasında mühüm rol oynayır. Onun istifadə nəticəliyinin və yığım səviyyəsinin yüksəldilməsi real istehsalın canlandırılmasının və iqtisadiyyatın yeni sektorlarının yaradılması və inkişafının əsas təməli olmaqla böhranlı hadisələrin aradan qaldırılmasına və ölkənin milli sərvətinin artırılmasına zəmin yaradır.

Hazırda yerli müəssisələrə xarici iqtisadi əlaqələrin bərabər hüquqlu iştirakçısı və tərəfdaşı olmaq ixtiyarı verilmişdir. Məhz bu imkandan istifadə edərək ölkə iqtisadiyyatının bütün sahələrində xarici tərəfdaşlarla faydalı iqtisadi əlaqələr yaradılır. Bu zaman hər bir müəssisə xarici iqtisadi əlaqələr amilinin üstünlüklərindən yararlanmağa can atır. Çox vaxt bunu ölkə iqtisadiyyatında gedən proseslərlə, xüsusilə də istehsalın bərpası və genişləndirilməsi üçün maddi-texniki təminatın, investisiya mənbələrinin və maliyyə vəsaitlərinin məhdudluğu ilə izah edirlər. Odur ki, dövlət və özəl sektorun mülkiyyətçiləri xarici iqtisadi əlaqələr yaradaraq ayrı-ayrı sahələrin, istehsal və qeyri-istehsal müəssisələrinin inkişaf yoluna qaytarılması məqsədilə investisiya cəlb etməyə çalışırlar. Bu istiqamətdə aparılan işlər artıq öz nəticəsini yanacaq-enerji kompleksinin, habelə ölkə iqtisadiyyatının əsas sahəsi olan neft və qaz hasilatı sahəsində vermişdir. Hazırda respublikamıza xarici investisiya axını davam edir və onun tətbiq dairəsi tədricən genişlənərək emal, tikinti və xidmət sahələrini əhatə etməkdədir. [3]

Araşdırmalar və inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, investisiya iqtisadiyyatın inkişafını müəyyən edən əsas amildir. Cəmiyyətin real kapitalının artması iqtisadiyyatın istehsal potensialını yüksəldir, istehsala, yeni texnologiyaya investisiya qoyuluşu kəskin rəqabət mübarizəsində fəaliyyət göstərməyə yardım edir, öz məhsullarına qiymətin daha çevik tənzimlənməsinə imkan verir.

Nəzərdə saxlamaq lazımdır ki, qeyri-neft sektorunun müəssisələrində zəruri həcmdə yığımın olmaması və irimiqyaslı investisiya risklərinin mövcudluğu əslində aqrar sferada mövcud olan istehsal-maliyyə böhranının əsas səbəbləri kimi çıxış edir.

Araşdırmalar göstərir ki, ölkəmizin qeyri-neft sektorunun investisiya mühitinin pisləşməsini doğuran əsas səbəblər aşağıdakılardan iabərtdir:

- buraya maliyyə resursları axınının zəifləməsi;
- bazarda idxal məhsullarının xüsusi çəkisinin yüksəkliyi və yerli məhsul satışının məhdudluğu üzündən yerli istehsalçıların gəlirləri həcminin azalması;
- büdcə münasibətlərində bütün sferaların qısa müddət ərzində köklü surətdə yenidən qurulması, qeyri-neft sektorunun dövlət tənzimlənməsinin yeni mexanizmi əsasında ərzaq istehsalçılarının maliyyə itkilərinin uyğun kompensasiyası olmadan buraya dövlət yardımının mövcud formalarından imtina edilməsi.

Ölkəmizdə bazar iqtisadiyyatının möhkəmləndirilməsinin ən mühüm istiqamətlərindən biri də resupblikamızın regionlarında sahibkarlığın inkişafıdır. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü ilə tarixli «Azərbaycan Respublikası regionlarının inkişafının Dövlət Proqramı»nda sahibkarlığın regional inkişafının sürətləndirilməsi, qeyri – neft sektorunun inkişafına investisiyaların yönəldilməsi xüsusi mühüm əhəmiyyət kəsb edir. Proqramda əsas məqsəd regionlara, o cümlədən kənd yaşayış məntəqələrinə investisiyaların cəlb edilməsinə nail olmaqdan ibarətdir.

Azərbaycanın qeyri-neft sektoru məhsullarının istehsalı və emalının inkişaf etdirilməsi sahəsində geniş imkanlarının olması heç kimdə şübhə doğurmamalıdır. Respublikanın münbit torpaqlarında pambıq, üzüm, taxıl, tütün, çay, meyvə-tərəvəz, kartof, sitrus bitkiləri və s. yetişdirilir ki, bu sahəyə də investisiyaların cəlb edilməsi ilə buraxılan məhsulların məhsuldarlığını xeyli artırmaq olar. Bununla da həm ölkənin daxili ehtiyaclarını tam ödəmək, eləcə də həmin məhsulların ixracına nail olmaq mümkündür. Həmçinin ölkəmizin təbii-iqlim şəraiti və istirahət-müalicə zamanlarının mövcudluğu imkan verir ki, bu sahələrin inkişafına xarici investisiyalar cəlb olunsun. Ona görə də hesab edirik ki, qeyri-neft sektorunun inkişafına yönəldilən investisiyaların bütövlükdə ölkə iqtisadiyyatına yönəldilən məcmu investisiyalarda xüsusi çəkisinin artırılmasına, əmək məhsuldarlığını yüksəlməsini təmin etməklə ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və qeyd olunan sahələrin inkişafı məqsədilə sahəvi proqramların hazırlanmasına xüsusi diqqət verilməlidir.

## 2. Ssosial-iqtisadi inkişafin makroiqtisadi təhlil və investisiya mühitinin qiymətləndirilməsi.

Azərbaycanda yaradılmış sosial-iqtisadi potensial davamlı iqtisadi inkişafı və makroiqtisadi sabitliyi təmin etmişdir. Bu strategiyanın həyata keçirilməsi nəticəsində iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuşdur. Ölkə başçısının müəyyən etdiyi siyasətin həyata keçirilməsi gələcək illər üçün dayanıqlı inkişafın möhkəm təməlinin yaradılmasına, Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsinə, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına imkan vermişdir. [7]

Ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə, ötən ildə də investisiya siyasətinin əsas prioritet istiqamətlərini infrastruktur sahələrinin inkişafı, investisiya resurslarının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullaşdırılması, regionlar arasında investisiyaların bölgüsünün optimallaşdırılması, ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi təşkil etmişdir.

Dövlət investisiya proqramının əsas məqsədi ölkə iqtisadiyyatının, xüsusilə, qeyri-neft sektorunun dinamik inkişafına, əhalinin iqtisadi və sosial tələbatlarının daha dolğun təmin olunmasına, regionların inkişafına, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin mühafizəsinə yönəldilmiş dövlət əhəmiyyətli investisiya layihələrinin sistemli və səmərəli şəkildə həyata keçirilməsini təmin etməkdən ibarətdir. [8]




Şəkil 1. 2017-ci il ərzində Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafı

2017-ci ilin yanvar-sentyabr ayları ərzində iqtisadiyyatın qeyri-neft sektorunda 31327.2 milyon manatlıq əlavə dəyər yaradılmış və ümumilikdə onun 56.5%-i sosial və digər xidmətlər, ticarət, nəqliyyat vasitələrinin təmiri və tikinti sahələrinin payına düşmüşdür. 2017-ci ilin yanvar-sentyabr aylarında Pirallahı rayonunda "Pirallahı" Günəş Elektrik Stansiyası, Balaxanı Sənaye Parkı, Yevlax şəhərində Varvara balıqartırma və balıqyetişdirmə zavodu, Lənkəran şəhərində Çəltik zavodu, "Xəzər Palace" otel kompleksi, Balakən rayonunda Balakən Su Elektrik Stansiyası, Cəlilabad rayonunda dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsi, Gədəbəy rayonunda limonad zavodu, 35/10 kV-luq "Gədəbəy" elektrik yarımstansiyası, Göygöl rayonunda "Çiçəkli" Su Elektrik Stansiyası, Qax rayonunda 110/35/10 kV-luq elektrik yarımstansiyası, Neftçala rayonunda Neftçala Sənaye Məhəlləsi, 110/35/6 kV-luq "Neftçala" yarımstansiyası, Saatlı rayonunda 110/35/10 kV-luq "Sarıcalar" elektrik yarımstansiyası, Salyan rayonunda 110/35/10 kV-luq "Qaraqaşlı" yarımstansiyası, "Şəmkir Aqroparkı"nın Logistika Mərkəzi, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialı, Zaqatala rayonunda "Bəhmətli" elektrik yarımstansiyası və s. obyektlər istifadəyə verilmişdir. [7]

Neft gəlirlərindən səmərəli istifadə etməklə bu vəsaitin bir hissəsi insan kapitalının inkişafına, qeyri-neft sektorunun inkişafını təmin etmək üçün infrastrukturun yenidən qurulmasına, iqtisadi-sosial inkişaf konsepsiyasına uyğun olaraq bütün sahələr üzrə dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsinə yönəldilir.

Azərbaycan Respublikasının 2010-cu il üçün dövlət investisiya siyasəti ölkənin sosial-iqtisadi inkişaf məqsədlərinə uyğun olaraq daha əlverişli investisiya mühitinin təmin edilməsi üçün ümumi biznes şəraitinin yaxşılaşdırılması, xüsusi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsi, bütün investorlar üçün azad rəqabət mühitinin yaradılması, sabit normativ-hüquqi rejimin təmin edilməsi və iqtisadi sabitliyin qorunması prinsiplərinə əsaslanmış və aşağıdakı prioritetlərin həyata keçirilməsinə yönəldilmişdir:

- infrastruktur sahələrinin inkişafı və onların davamlı istismarının təmin edilməsi;
- investisiya axınının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullaşdırılması;
- regionlar arasında investisiyaların bölgüsünün optimallaşdırılması;
- ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi, insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyi;
- dövlət investisiya siyasətinin şəffaflığının təmin edilməsi.




Sxem 1. İnvestisiya mühitinin formalaşdırılmasına təsir göstərən amillər

Qeyd etmək lazımdır ki, əlverişli investisiya mühitinin formalaşdırılmasına təsir göstərən amillər içərisində siyasi amillər daha çox əhəmiyyət kəsb edir. Çünki ölkə iqtisadiyyatının investisiya tələbatının ödənilməsi xarici kapitalın cəlb olunmasını tələb

edir ki, bu da ilk növbədə ölkədə siyasi sabitliyin olması ilə bağlıdır. Artıq bu sahədə xeyli nailiyyətlər əldə edilmiş, xarici investisiyalara münasibətdə ölkəmizin mövqeyi aydınlaşmış, xarici kapitalın cəlb olunması təmin olunmuşdur. Lakin, hələlik, cəlb olunan investisiyaların böyük əksəriyyəti yanacaq-enerji kompleksinə qoyulmuşdur. Hazırda qeyri-neft sektoruna investisiya qoyuluşu tələb olunan səviyyədə deyil və ləng gedir. [8] Odur ki, həmin sahələrin də həyati əhəmiyyətə malik olması nəzərə alınmaqla, bu sahələrə investisiya axını bütün mümkün iqtisadi vasitələrdən istifadə olunmaqla stimullaşdırılmalıdır.

**Nəticə**

İnvestisiya əslində bütün növ əmlak və intellektual qiymətlilərin, tədiyə və maliyyə öhdəliklərinin sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyuluşudur. Investisiya qoyuluşu perspektiv xarakter daşıyır və rəqabət mübarizəsi, qeyri-müəyyənlik və risk şəraitində həyata keçirilir. Müasir investisiyalar innovasiya xarakteri daşıyır ki, bu da ETT-nin dinamik inkişafı və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi zəruriliyi ilə şərtlənir. Investisiya və investisiyalaşmanın məqsədi bugünkü ehtiyacların və onların gələjəkdə təmin edilməsi, investisiya mənfəətinin (gəlirinin) alınması və müsbət sosial səmərənin əldə edilməsi sayılır. Yuxarıda qeyd olunanları bir daha konkretləşdirsək, belə bir qənaətə gəlmək olar ki, investisiya iqtisadi obyektlərə əmlak və intellektual qiymətlilər formasında sahibkarlıq və digər fəaliyyətləri təmin etmək, gələjəkdə mənfəət və ya digər fayda almaq məqsədilə bütün növ kapital qoyuluşlarını özündə birləşdirir.

İnvestisiya prosesinin dinamikliyi onun tənzimlənməsində çevik alətlərin tətbiqini tələb edir ki, bu da gələcəkdə investisiyanın bütün mərhələlərini əhatə edəjəkdir. Ölkənin inkişafının bütün mərhələlərində investisiya prosesinin tənzimlənməsinin müxtəlif alət və metodları tətbiq olunur ki, bunların da məjmusu investisiya mexanizmini formalaşdırır.

İnvestisiyanın inkişafının tənzimlənməsi prosesində xüsusi rol dövlətə məxsusdur. Investisiya proseslərinin dövlət tənzimlənməsinə təsərrüfat subyektlərinin davranışına təsir göstərən, qanunverijiliklə və digər normativ aktlar ilə nəzərdə tutulmuş iqtisadi rıçaqların istifadəsi vasitəsilə dövlət tərəfindən həyata keçirilən bazar iqtisadiyyatının dövlət idarəetməsi kimi baxıla bilər.

Təsərrüfat subyektlərinin investisiya fəaliyyəti dövlətin nəzarətində olan obyektidir. Bu ilk növbədə investisiyanın özünün mahiyyəti ilə izah olunur. Belə ki, investisiya fəaliyyəti iqtisadiyyatın dinamik və rəqabət qabiliyyətli inkişafının əsasıdır, jəmiyyətin inkişafının yüksək sosial səviyyəsinin təmin olunması amilidir, dövlətin iqtisadi və xüsusilə də ərzaq təhlükəsizliyinin əsasıdır.

Dövlətin investisiya siyasəti investisiyaların iqtisadi və sosial sferaya cəlb olunması üzrə tədbirlər sistemini və onların səmərəli istifadəsi üçün şərait yaradılmasını nəzərdə tutmalıdır. Bu, investisiyanın cəlb olunması və innovasiyanın inkişafı üzrə hüquqi sistemin, vergi və kredit güzəştlərinin təkmilləşdirilməsi hesabına, eləjə də aktiv amortizasiya siyasəti və xariji qoyuluşların cəlb edilməsi üçün şərait yaradılması hesabına əldə oluna bilər.

İnvestisiya proseslərinin iqtisadi tənzimlənməsində dövlətin rolunun güjləndirilməsi təsdiq olunmuş və dövlət büdcəsinə daxil edilmiş proqramların reallaşmasına tam həjmdə kapital qoyuluşlarının maliyyələşdirilməsi üzrə dövlət öhdəliklərinin yerinə yetirilməsi nəzərdə tutulur.

Fond bazarının iştirakçıları üçün sərt oyun qaydaları müəyyən etməklə onun aydın və işlək strukturunu yaratmaq lazımdır. Ölkənin milli iqtisadiyyatında xarici kapitaldan səmərəli istifadə etmək, eləjə də həm hökümət, həm də regional səviyyədə investisiya tələb edən prioritet sənaye sahələrinin siyahısını müəyyənləşdirmək vacibdir.

Ölkə qarşısında duran möhtəşəm qurujuluq vəzifələrinin yerinə yetirilməsi üçün investisiya proseslərinə dəstək modelinin məhz aşağıdakı prinsiplər əsasında reallaşdırılmasını məqsədəuyğun sayırıq:

ölkəmizdə investisiya fəaliyyəti ilə bağlı hüquqi-normativ sənədləri daha da təkmilləşdirmək yolu ilə əlverişli investisiya mühitinin qorunub saxlanması;

yerli idarəetmə orqanlarının hüquqlarının genişləndirilməsi və investisiya bazasının möhkəmləndirilməsi;

investisiya banklarının (bir qayda olaraq iki bank filiallarının), investisiya fondlarının, sığorta şirkətlərinin şəbəkəsinin genişləndirilməsi;

xüsusi maliyyələşdirmə mənbələrinin (amortizasiya, mənfəət, əhalinin vəsaitləri) istifadəsi;

sahibkarlıq, ijarə, konsepsiya, tərəfdaşlıq və digər modellər bazasında özəl investisiyaların geniş sürətdə jəlb olunması;

investisiya tsiklinin bütün mərhələlərində, hər şeydən əvvəl isə, sövdələşmələrin şəffaflığını təmin edən tijarət şəbəkəsi (tenderlər) hesabına rəqabətin inkişafı və rəqabət mühitinin yaradılması;

investisiya prosesinin mütərəqqi idarəetmə formalarının xüsusi çəkisinin yüksəldilməsi. «Layihənin idarə edilməsi» və ya investisiya layihəsinin loqistikası investisiya tsikli mərhələsinin təjrid olunmasının qarşısını almağa imkan verəjək;

investisiya risklərinin sığortası üzrə dövlət zəmanətlərinin təmin edilməsi.

Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması xarici investisiya axınının artırılması üzrə aparılan işlə bağlıdır. Investisiya reytinqi nəinki portfel investisiyaların artımına kömək edəcək, həm də birbaşa xarici investisiyaların dinamikasına güclü təsir göstərəcəkdir. Bu isə yeni müəssisələrin yaradılması və istehsalın modernləşdirilməsi üçün vəsaitlərin cəlb olunmasına kömək edəcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR

Əliyev A.Y., Mirzəyev B.S. «Investisiya qoyuluşunun əsaslandırılmasında iqtisadi təhlil», Bakı, «Çənlibel», 2000-ci il. 400s.
Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı: Elm, 2001. 452 s.
Şirəliyev V. «Investisiyanın təhlili və idarə edilməsi». Bakı, Nurlan, 2001-ci il.
Алиев Р.М., Керимов М.З. «Организация финансово-бухгалтерской деятельности в экономике нефтяной и газовой промышленности Азербайджана», Баку, Элм, 1998 г., 673 с.
Балабанов И.Т. «Инновационный менеджмент», Санкт-Петербург, «ПИТЕР», 2000 г., 207 с.
Виленский П.Л., Лившин В.Н., Смоляк С.А. Оценка эффективности инвестиционных проектов. – М.: Дело, 2002.
http://www.economy.gov.az
https://www.export.gov
http://www.huquq.org.az

**THE İNVESTMENT ENVİROMENT İN AZERBAİJAN AND CONTEMPORARY STATE OF GOVERMENT REGULATİONS**

Valimammadov Macidxan Shahin
Food products' procurement and supply Open joint stock company

RESUME

The main purpose of the research is to estimate modern investiment environment in Azerbaijan. Over the past few years, the Government of Azerbaijan has worked to integrate the country more fully into the global economic marketplace, attract increased foreign investment, diversify its economy, and maintain positive growth. Attracting foreign direct investment to support economic diversification continues to be the stated goal of President Aliyev and his government. Less than expected oil production over the past several years coupled with continued low world oil prices – and their concomitant impact on budget revenues – prompted the Azerbaijani government to pursue more comprehensive reforms. President Aliyev has targeted the following sectors for attracting investment to help diversify the economy away from oil and gas production: agriculture, transportation, tourism, and information/communication technology.

***Key words:*** global economic marketplace, foreign investment, positive growth, oil production, communication technology.